DÖVLƏT VERGİ XİDMƏTİ

# Kommersiya və (və ya) vergi sirri hesab olunmayan məlumatların siyahısı genişləndirilmişdir

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2023-cü il tarixdən etibarən**

Aşağıdakı məlumatlar artıq kommersiya (vergi) sirri hesab olunmur:

- **təsərrüfat subyektinin (obyektinin) uçot kodu**;
- **məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları** üzrə borclar.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

**Məlumatınız olsun ki, vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyiciləri haqqında məlumat aşağıdakı hallarda digər orqanlara qanunvericiliklə müəyyən edilmiş qaydada verilə bilər:**

- “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 1-ci hissəsinin tətbiq edilməsi məqsədləri üçün Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə,
- “Sosial sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında”, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarından irəli gələn vəzifələrin icrası üçün zəruri olan hədlərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İcbari Sığorta üzrə Dövlət Agentliyinə.

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.10.2023-cü il tarixdən etibarən**

Vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisinin fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə) haqqında məlumat hesabların açılması məqsədilə bank əməliyyatı aparan şəxslərə verilə bilər.

BAKI — 2023